MahadSunnah

# فضل الصحابة وحقوقهم

# Səhabələrin fəzilət və haqları

## Şeyx Heysəm Sərhan

"Sünnə" tədris mərkəzinin rəhbəri



**Tərcümə edən: İlqar Eyvazoğlu**

Azərbaycan dili

اللغة الأذرية

ALSARHAAN.COM

MAHADSUNNAH.COM

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

Allah ﷻ buyurur:

﴿وَٱلسَّٰبِقُونَ ٱلۡأَوَّلُونَ مِنَ ٱلۡمُهَٰجِرِينَ وَٱلۡأَنصَارِ وَٱلَّذِينَ ٱتَّبَعُوهُم بِإِحۡسَٰنٖ رَّضِيَ ٱللَّهُ عَنۡهُمۡ وَرَضُواْ عَنۡهُ وَأَعَدَّ لَهُمۡ جَنَّٰتٖ تَجۡرِي تَحۡتَهَا ٱلۡأَنۡهَٰرُ خَٰلِدِينَ فِيهَآ أَبَدٗاۚ ذَٰلِكَ ٱلۡفَوۡزُ ٱلۡعَظِيمُ ١٠٠﴾

“Dində hamını ötüb keçən ilk mühacirlərə və ənsarlara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. (Allah) onlar üçün (ağacları) altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağları hazırlamışdır. Bu, böyük uğurdur”.[1]

Səhabələr bu ümmətin nəfs baxımından ən yaxşısı, qəlbləri ən saleh olanı, ən dərin elmlisi və ən az özlərini yükləyən idilər.

Onlar Allahın ﷻ kitabında və Peyğəmbərin ﷺ öz sünnəsində olanların mənasını ümmətin içində ən yaxşı bilənlərdirlər.

İnsanların içində Kitab və Sünnəyə ən çox əməl edən, ən gözəl nəsihət edən və  bidət və havalardan ən uzaq olanıdırlar.

---

[1] Tovbə surəsi, 100-cü ayə

Onların bizim üzərimizdə haqlarındandır ki:

- Onların fəzilətlərindən səhih olanları etiraf edib, təsdiq etmək.
- Öndə gedən olduqlarına və yaxşılıq və xeyirxahlıqlarına görə onları qəlblə sevmək və dillə onlardan razı olmaq.
- Onların sözlərin qəbul etmək və onlardan nümunə götürmək.
- Onların hər hansı birinə qarşı kin və nifrətdən qəlbləri salamat saxlamaq.
- Onları təhqir edib söyməyin daha şiddətli haram olmasına inanmaq.

Çünki bunda:

- Quranın onları tərifləməyi,təmizə çıxarmağı və onlara gözəl sonluqlar vəd etməyinə qarşı ziddiyyət var.

- Peyğəmbərə ﷺ qarşı ədəbsizlik vardır. Çünki O, onları sevməyi əmr etmiş və onları söyməyi qadağan etmişdir.

Peyğəmbərə ﷺ buyurur:

“Mənim səhabələrimi söyməyin! Nəfsim əlində olana and olsun ki, sizdən birini uhud dağı qədər qızıl sədəqə versə, onların bir və ya yarım ovuc verdiyi sədəqəyə çata bilməz”.[2]

- Aralarındakı mübahisələrə qarışmamaq və onların ictihad etdiyinə və buna görə savab qazandığına etiqad etmək.

Çünki onların doğru olanına iki savab, səhv olanına isə bir savab vardır. Onun səhvi, ictihad etdiyinə görə bağışlanır.

- Onlardan birinə şamil oluna bilən pis işləri yaymaqdan çəkinmək.

Çünki bunların hamısı uydurulmuş bir yalandır. Onların sübuta yetirilən pis işləri isə çox azdır və onların yaxşı əməllərinin dəryasında batmışdır.

- Onların hamısının fəzilətli olmasına və fəzilətdə bir-birindən üstün olmasına etiqad etmək.

Onların ən fəzilətliləri raşidi xəlifələrdir. Sonra Cənnətlə müjdələnən on səhabə. Sonra bədr döyüşündə iştirak edənlər. Sonra ridvan beyətinin iştirakçıları və s.

[2] Muslim /2541

Allah ﷻ buyurur:

﴿لَا يَسۡتَوِي مِنكُم مَّنۡ أَنفَقَ مِن قَبۡلِ ٱلۡفَتۡحِ وَقَٰتَلَۚ أُوْلَٰٓئِكَ أَعۡظَمُ دَرَجَةٗ
مِّنَ ٱلَّذِينَ أَنفَقُواْ مِنۢ بَعۡدُ وَقَٰتَلُواْۚ وَكُلّٗا وَعَدَ ٱللَّهُ ٱلۡحُسۡنَىٰۚ وَٱللَّهُ بِمَا تَعۡمَلُونَ خَبِيرٞ ١٠﴾

"Sizlərdən (Məkkənin) fəthindən əvvəl xərcləyib döyüşənlər (başqaları ilə) eyni deyillər. Onların dərəcəsi (mallarını fəthdən )sonra xərcləyib döyüşənlərdən daha üstündür. Amma Allah onların hamısına ən gözəl olanı vəd etmişdir. Allah sizin nə etdiklərinizdən xəbərdardır".[3]

- Onlar üçün dua etmək, onlara rəhmət oxumaq və onlar üçün bağışlanma diləmək.

Allah ﷻ buyurur:

﴿وَٱلَّذِينَ جَآءُو مِنۢ بَعۡدِهِمۡ يَقُولُونَ رَبَّنَا ٱغۡفِرۡ لَنَا وَلِإِخۡوَٰنِنَا ٱلَّذِينَ
سَبَقُونَا بِٱلۡإِيمَٰنِ وَلَا تَجۡعَلۡ فِي قُلُوبِنَا غِلّٗا لِّلَّذِينَ ءَامَنُواْ رَبَّنَآ إِنَّكَ رَءُوفٞ رَّحِيمٌ ١٠﴾

"(Səhabələrdən) sonra gələnlər deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!"."[4]

---

[3] Hədid surəsi, 10-cu ayə
[4] Həşr surəsi, 10-cu ayə